**Teymur Kərimli**
*akademik*

## "Molla Nəsrəddin" – 10 cildliyinin II cildinə ön söz

1906-1931-ci illərdə Azərbaycanın mütəfəkkir yazıçı-dramaturqu və publisisti Mirzə Cəlil Məmmədquluzadənin (1869-1932) baş redaktorluğu ilə Tiflisdə, Təbrizdə və Bakıda nəşr edilmiş "Molla Nəsrəddin" jurnalı təkcə Azərbaycan üçün deyil, bütün Türk dünyası və İslam Şərqi üçün misilsiz əhəmiyyət daşıyan, irəli sürdüyü kəskin sosial-psixoloji, iqtisadi-siyasi, mədəni-mənəvi, humanitar problemlərlə, həqiqi sənət əsəri olan nəsr və nəzm örnəkləri ilə bu gün də aktuallığını itirməyən şəkilli satirik bir toplu olmuşdur.

Əksər nömrələri ərəb əlifbası ilə işıq üzü görən bu jurnal Azərbaycanda gedən əlifba islahatları ilə bağlı olaraq, əski əlifbanı bilməyən həmvətənlərimiz, xüsusən gənc nəsil üçün əlçatmaz olduğundan, onun milli-mənəvi dəyər kimi çağdaş nəslə çatdırılmasına ehtiyac yaranmış, bu səbəbdən də Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Mətnşünaslıq şöbəsində keçən yüzilliyin ikinci yarısından etibarən uzun illər boyu jurnalın tam mətni ərəb əlifbasından kiril əlifbasına transfoneliterasiya edilmişdir.

Sovet hökümətinin Azərbaycanın klassik irsinə məlum münasibəti nəticəsində 12 cilddə çapı nəzərdə tutulan jurnalın yalnız bir cildi kiril əlifbası ilə işıq üzü görmüş, Moskvanın qarət etdiyi sərvətlərimizdən vəsait ayrılmadığına görə makinadan çıxmış əlyazması uzun illər Ədəbiyyat İnstitutunun dəmir seyflərində toz-torpaq içində yatıb qalmışdır.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra gənc dövlətin qarşılaşdığı maliyyə çətinliklərinə baxmayaraq, 1996-2011-ci illər ərzində jurnalın tam mətni latın qrafikalı Azərbaycan əlifbası ilə 8 cildə 700 nüsxə sayda, nəfis şəkildə rəngli illüstrasiyalarla çap edilmiş və "Molla Nəsrəddin"sevərlərin istifadəsinə verilmişdir. Əlbəttə, əhalisi artıq 10 milyona yaxınlaşan, 100 minlərlə ziyalı ordusuna, vətənpərvər, millətsevər gənclərə malik olan suveren Azərbaycan üçün bu rəqəmin çox cüzi olduğu heç kim üçün sirr deyildir. Məhz bu səbəbdən "Şərq-Qərb" nəşriyyatının vətənpərvərlik missiyası sayəsində jurnalın 10 cildi yeni nəşrinin həyata keçirilməsi qərara alınmışdır.

Oxucuların ixtiyarına verilən II cildə 1907-ci ilin son 9 nömrəsi (№41-49), 1908-ci ildən 52 nömrə, 1909-cu ildən isə ilk 11 nömrə - cəmi 72 nömrə salınmışdır. 1906-cı ilin 1-ci nömrəsindən başlayaraq jurnalda müxtəlif rubrikalar altında (Molla Nəsrəddinin teleqramları", "Bilməli xəbərlər", "Atalar sözü", "Molla Nəsrəddinin poçta qutusu", "Molla Nəsrəddinin cavabı", "Qafqaz xəbərləri", "Xarici xəbərlər", "Lüğət", "İran təqvimindən", "Suallar", "Xarici əhvalat", "Teleqraf xəbərləri", "Tapmaca", "Elan", "Elamnamə", "Molla Nəsrəddinin hesab məsələləri", "Yaylaq xəbərləri", "Balaca felyeton", "Sual və cavab", "Osmanlı", "İran xəbərləri", "Müsəlman içində gördüklərim", "Məktub", "Səyahətnamə", "Qədim Molla Nəsrəddinin nağılları", "Çətin məsələ", "Nəsihəti-hükəma", "Öz müxbirlərimizdən", "Xəbərçilərimizdən", "Təzə xəbərlər", "Nəzm", "Ədəbiyyat", "Yuxu", "Uzun dərya",

“Xırda-mırda xəbərlər”, “Boş danışıqlar”, “Cəhənnəm məktubları”, “Elmi-nücum”, “İdarədən”, “Kəndlilərin məişətindən”, “Ticarət və ekonomi xəbərləri”, “Politika aləmindən”, “Cəfəngiyyat”, “Qəribə xəbərlər”, “Zarafat”, “Oxucularımıza”, “Telefon ilə söhbət”, “Təbabət elmindən”, “Hikmətli sözlər”, “Bizim işlərimiz” və s.) Azərbaycan cəmiyyətinin, İslam aləminin, güc kultuna tapınan dünyanın ağrılı, həlli vacib ictimai-siyasi-mədəni problemləri, eləcə də müxtəlif şəhər və bölgələrdən daxil olan xəbərlər, satirik şeir və hekayələr öz əksini tapmışdır. Bu dövrdə ətraf ictimai-mədəni-siyasi mühitdə artıq xeyli məşhurlaşmış jurnalda ənənəvi rubrikalarla yanaşı, bir sıra yeni aktual rubrikalarla müraciət edilmişdir ki, bu da toplunun ictimai-siyasi kəsərini daha da gücləndirməyə səbəb olmuşdur. Məsələn, “Xadimi-millət” imzası ilə verilmiş “Qatış-bulaş” felyetonunda dilin təmizliyi, saflığı məsələsi qoyulur ki, bu da hətta indiki günümüzdə öz aktuallığını qoruyub saxlamışdır:

“Sərkar Molla əmi! Özümü tərif etmək olmasın, mən tamam üç dilə: türk, fars və ərəb dillərinə aliməm. İndi sənin ağlınca, mən bu üç dillərin hansı birisində məqalə yazsam, mənim üçün fəzilət artıq olur? Mənim bu kəm ağlıma görə, bu dillərin heç birisində məqalə yazmaq mənə əl verməz, çünki əgər türk dilində yazaram, deyəllər fars və ərəb dillərini bilmir; əgər fars dilində yazaram, deyəllər türk və ərəb dillərindən xəbəri yoxdur və əgər ərəb dilində yazaram, deyəllər türk, fars dillərindən məhrumdur. Yaxşısı budur ki, mən məqalədə bu üç dili bir-birinə qatış-bulaş eləyəm...”

1907-ci ilin 42-ci nömrəsinin 1-ci səhifəsində ölkənin dünya gücləri tərəfindən bölüşdürülməsi, guya onların İran üçün məşrutiyyət və tərəqqi istəməklərindən irəli gəlir.

Göründüyü kimi, üzərindən 110 il keçməsinə baxmayaraq, “Molla Nəsrəddin”in qaldırdığı problemlər bu gün aktualdır və bu unikal dərginin müasirliyi, ölməzliyi də elə bundadır.

Əlbəttə, bu qısa ön sözümüzdə məqsədimiz ll cilddəki bütün yazıları və mövzuları, karikaturaları təhlil etmək deyildir. Sadəcə, hər bir cildin əvvəlində onun ümumi konturlarını və dərginin ümumi formatını oxuculara çatdırmaq istədik. Birinci cildin ön sözündən gen-bol istifadə etməyimiz də, avtoplagiat olmayıb, sadəcə, bu məqsədə xidmət edir.

Oxucuların təqdim ediləndən bir qədər də iri formatda, 8 səhifə həcmində nəşr olunan hər bir nömrənin 4 səhifəsi yazıdan, 4 səhifəsi isə şəkildən ibarətdir. Adətən, 2-ci, 3-cü, 6-cı və 7-ci səhifələrdə mətn, 1-ci, 4-cü, 5-ci, 8-ci səhifələrdə isə şəkil (əksər hallarda mövzusu Cəlil Məmmədquluzadə tərəfindən verilərək, rəssamın çəkdiyi karikatura) yerləşdirilir. Əksər hallarda şəkilaltı sözlər mətləbi daha açıq şəkildə oxucuya çatdırmağa yardımçı olur. Bir neçə nömrədə senzuradan keçməyən şəkillərin yeri boş saxlanılmış və “Bizdən asılı olmayan səbəblərə görə bu yer boş qaldı” izahı verilmişdir.

Jurnalın həftədə bir dəfə çıxması nəzərdə tutulsa da, bəzən hakim dairələrlə və çoxsaylı düşmənlərlə mübarizədə bir neçə dəfə bağlanmalı olmuşdur. Buna baxmayaraq, “Molla Nəsrəddin” yenə öz fəaliyyətini bərpa etmiş və xalqına, vətəninə, dindaşlarına, bütövlükdə insanlığa xidmət göstərməkdən, zülmə, ədalətsizliyə, maarifsizliyə, fanatizmə, cəhalətə, eləcə də qlobal səviyyədə o dövrün Qərb dünyasında Şərqə qarşı tətbiq edilən “ikili standartlara” qarşı amansız mübarizə aparmaqdan yorulmamışdır.